# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## Ə M R

№ 73

Bakı şəhəri "31" avqust 2018 il

**"Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2016-cı il 11 fevral tarixli 2 nömrəli Əmrində dəyişikliklər edilməsi haqqında**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 4.1-ci bəndini və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2016-cı il 11 fevral tarixli 2 nömrəli Əmrinin 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Pərvin Bayramova - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının İqtisadiyyat şöbəsinin müdir müavini;" sözləri "Rauf Qurbanov - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının İqtisadiyyat şöbəsinin müdiri;" sözləri ilə əvəz edilsin;

1.2. "Elxan Kərimov – Azərbaycan Respublikasının Energetika Nazirliyinin Aparatının Daxili nəzarət şöbəsinin İnzibati-təşkilati nəzarət sektorunun müdiri." sözləri "Əsəd İsmayılov – Azərbaycan Respublikasının Energetika Nazirliyinin Aparatının İnsan resursları və dövlət qulluğu şöbəsinin müdiri." sözləri ilə əvəz edilsin.

2. Ümumi şöbə bu əmrin surətini Apellyasiya Şurasının üzvlərinə çatdırılmasını təmin etsin.

3. İctimaiyyətlə əlaqələr və informasiya texnologiyaları şöbəsi bu əmrin nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**